Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) Allah qatında ən böyük günah hansıdır?” - deyə soruşduğumda: “Səni yaratmış olduğu halda Allaha şərik qoşmağındır

Abdullah bin Məsudun (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) Allah qatında ən böyük günah hansıdır?” - deyə soruşduğumda: “Səni yaratmış olduğu halda Allaha şərik qoşmağındır” - deyə cavab verdi. Mən dedim: "Həqiqətən də bu böyük məsələdir. Sonra hansı?" - deyə soruşdum. O Dedi: "Övladının sənin yeməyinə şərik olub sənlə yeməsi qorxusuna (ruzi qorxusuna) görə onu öldürmək". Dedim: "Sonra hansı?". Dedi: "Qonşunun həyat yoldaşıyla cinsi yaxınlıq etmək".

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) ən böyük günah haqqında soruşuldu, o isə dedi: Ən böyük günah şirkdir və bu, Allahı uluhiyyətində və ya rübubiyyətində və ya isim və sifətlərində Ona nəyisə, kimisə tay-bərabər etməkdir. Bu günah Uca Allah tərəfindən ancaq tövbə ilə bağışlanar və əgər bunu edən həmin (şirk) üzrə ölərsə, əbədi olaraq cəhənnəmdə qalar. Sonra insanın övladını ruzi qıtlığı qorxusuyla öldürməsi. İnsanı öldürmək haramdır, qan bağı olan bir qohumu öldürmək daha böyük günahdır və Allahın insana verdiyi ruzidə öldürdüyü kimsənin şərik olmasından, bu səbəbə görə ruzisinin daralmasından qorxaraq öldürmək daha böyük günahdır. Sonra qonşusunun həyat yoldaşıyla zina etmək. Qonşusunun həyat yoldaşını özünə cəlb edər və onunla cinsi əlaqəyə girmək üçün onu aldatmağa çalışar. Zina haramdır, lakin bu yaramaz hərəkət, haqqında şəriətin xeyirxahlıq və gözəl münasibət əmr etdiyi qonşunun həyat yoldaşıyla etdikdə isə günah daha da böyük olur.

https://sunnah.global/hadeeth/az/show/5359